Tarix və onun problemləri, №4 2009

**HÜSEYN DƏBİRİ**
*AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun dissertantı*

# İRANLA AZƏRBAYCAN RESPUBLİKASI ARASINDA DİPLOMATİK ƏLAQƏLƏRİN YARANMASI TARİXİ

İranla Azərbaycan Respublikası araında beynəlxalq munasibətlərin yaranması XX əsrin ikinci onilliyinə təsadüf edir.

Birinci Dünya Müharibəsindən sonra dünyanın siyasi xəritəsində əsaslı dəyişikliklər baş verdi. Beləki, dünyanın siyasi-coğrafi xəritəsi erroziyaya məruz qaldı və bir çox dövlətlər, o cümlədən Azərbaycan öz mustəqilliyini elan etdi. Beləliklə 1918-1920-ci illərdə Azərbaycan Xalq Cumhuriyyəti ilə İran arasında siyasi, diplomatik münasibətlər suveren dövlətlər səviyyəsində bər-qərar oldu. Azərbaycan Xalq Cumhüriyyətinin mustəqilliyini de-yure taniyan ilk dövlət olan İranla AXC arasında səfir səviyyəsində diplomatik əlaqələr yaradılması haqqında müqavilə imzalandı (16).

Qeyd etmək lazımdır ki, AXC-nin İran tərəfindən rəsmi tanınması İranda birmənalı qarşılanmadı. İranın bəzi rəsmi dairələri, o cümlədən İranın Xarici İşlər naziri Firuz Bəyan Paris sülh konransında AXC-yə qarşı ərazi iddiaları irəli surdü (1918-ci il). Lakin bu iddia konfrans tərəfindən rədd edildi. AXC-nin rəhbərliyi İranla AXC-nin mehriban dostluq və qonşuluq münasibətlərinə zidd olan dairələrin, o cümlədən Osmanlı dövlətinin təxribat xarakterli fəaliyyətini və İranın şovinist dairələrinin fəaliyyətini aradan qaldırmaqdanı ötrü o dövrün mətbuatında çıxış edirdilər. Məhəmməd Əmin Rəsulzacə yazırdı: «Musavatçılar ona görə dövlətin adını Azərbaycan qoyublar ki, Arazdan şimalda yaşayan insanlar azərbaycanlılardır və əslən İran torpağında gözləri yoxdur». Mətbuatda bu xarakterli məqalələr dərc olunduqdan sonra AXC rəhbərliyi İranın paytaxtı Tehrana rəsmi dövlət nümayəndə heyəti göndərmək qərarına qəldi. AXC tərəfindən nümayəndə heyətinə qacarilər sülaləsindən olan AXC Xarici İşlər Nazirinin müavini Adil Xan Ziyadxanlı və İran tərəfindən nümayəndə heyətinə Seyid Məhəmməd Fərrux Mötəsim əs-Səbtənə başçılıq edirdi. Aparılan danışıqların nəticəsində hər iki razı salan 14 maddədən ibarət dostluq müqaviləsi imzalandı (1) Lakin həm daxili və həm də xarici irticanın təsiri altında imzalanan bu muqavilə İran Məclisi tərəfindən təsdiq olunmadı. Bununla belə hər iki ölkə arasında danışıqlar davam etdirilirdi. Nəhayət, 1919-cu ilin dekabr ayında Seyid Ziyaəddin Təbatəbainin başçılığı ilə 14 nəfərdən ibarət nümayəndə heyəti Bakıya gəldi (2). İran nümayəndə heyəti Bakıda 4 ay işlədi 1919-cu ilin dekabrından 1920-ci ilin mart ayının 20-ə dək davam edən danışıqlarda İranın nümayəndə heyətinin uzvləri və Azərbaycan tərəfindən Xarici İşlər naziri Fətəli Xan Xoyski, Ədliyyə Naziri Xəlilbəy Xasməmmədov, Ticarət və Sənaye naziri C. Hacinski iştirak edirdilər. Aparılan muzakirələrin yekunu olaraq aşağıdakı 6 sənəd imzalandı

- 14 maddədən ibarət Dostluq haqqında müqavilə
- 17 maddədən ibarət Gömrük və ticarət haqqında müqavilə
- 1 maddədən ibarət ərzaq malları haqqınd müqavilə
- 19 maddədən ibarət poçt haqqında müqavilə
- 18 maddədən ibarət teleqraf haqqında müqavilə

Hər iki dövlət arasında hərtərəfli münasibətlər yaradılması üçün zəmin yaradan bu sənədlər parlament tərəfindən ratifikasiya olunduqdan sonra hüququ qüvvə qazanırdı. Lakin 1920-ci il aprel ayının 28-də Bakının XI Qızıl ordu tərəfindən işğal olun-

ması ilə Azərbaycan Xalq Cumhuriyyəti devirildi, imzalanmış sənədlərin ratifikasiyasına imkan verilmədi (1 və 11).

Burada, xüsusilə qeyd etmək lazımdır ki, bu sənədlər imzalanmamışdan da əvvəl İranla Azərbaycan arasında, İranın şimal vilayətləri arasında geniş iqtisadi, siyasi əlaqələr var idi və Azərbaycanla İranın sərhəd boyu vilayətlərinin hamısının neftə olan ehtiyacı Bakı tərəfindən təmin olunurdu.

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra da İranla ticarət əlaqələri qarşılıqlı mənafe əsasında davam etdirilirdi. Heç də təsadüfi deyildir ki, 1923-cü ildə Sovet dövlətinin qəbul etdiyi qərarla Bakı şərq ölkələri ilə ticarət aparan təşkilatların mərkəzinə çevirilmişdi. Lakin qeyd etmək lazımdır ki, İranla Azərbaycan arasında iqtisadi-ticarət əlaqələri birbaşa deyil İran-Sovet İttifaqı iqtisadi-ticarət əlaqələri tərkibində göstərilirdi. Bu əlaqələrin genişlənməsində quru, dəmiryolu, su və hava yolları həlledici rol oynayırdı. XX əsrin ortalarında transiran dəmiryolunun çəkilməsi 1941-ci ildə 455 km. uzunluğunda Bakı-Culfa dəmiryolunun çəkilməsi və onun Təbriz-Culfa dəmiryoluna birləşdirilməsi ilə Azərbaycan Respublikasının İran, Sovet İttifaqı və Avropa ölkələri arasında olan yükdaşımalarda tranzit bir ölkə rolunu oynamağa başladı. Eyni zamanda İranla-Azərbaycan Respublikası arasında Xəzər gəmiçilik idarəsi «Kaspar»da xüsusi rol oynayırdı. 1928-ci ildə Bəndər Ənzəli Səhərində Kasparın nümayəndiliyi təsis olundu. İranla Azərbaycan arasında hava nəqliyyatının imkanlarından istifadə olunurdu. 1924-cü ildə Bakı ilə Tehran arasında nəqliyyat təyyarəsinin uçuşu başlandı. Sovet dönəmində Azərbaycanla İranın arasında bütün sahələrdə əlaqələr Moskvanın Şərqlə bağlı siyasi-iqtisadi, hərbi strateji maraqlarına xidmət edirdi və Azərbaycan Sovet dövlətinin fortpostu kimi yalnız müəyyən funksiyaları yerinə yetirirdi. Göründüyü kimi İranla Azərbaycan arasında heç bir siyasi əlaqə yox idi.

İranla Azərbaycan arasında mövcud olan belə bir şərait 1991-ci ilədək yəni Azərbaycanın istiqlaliyyət əldə etməsi dövrünədək (28 may 1991-ci il) davam etdi. 1991-ci ilin dekabrında İran ilk dövlətlər sırasında Azərbaycan Respublikasının mustəqilliyini rəsmən de-yure tanıdı və hər iki ölkənin münasibətlərində yeni bir mərhələ açıldı. Rəsmi tanımadan sonra İranın səfirliyinin Bakıda fəaliyyətə başlanması ilə iki ölkə arasında siyasi əlaqələrin də təməli qoyuldu (ətraflı bax 3,4 170.5).

İranla Azərbaycan Respublikası arasında münasibətlərin yaranması və inkişaf tarixini iki mərhələyə bölmək olar. 1991-1994-cü illəri əhatə edən birinci mərhələ və 1994-cü ildən bu günümüzədək davam edən ikinci mərhələ.

Birinci mərhələ (1991-1994-cü illər) qısa bir dövrü əhatə etsə də gələcəkdə iki ölkə arasında əlaqələrin inkişaf etdirilməsi üçün hüquqi zəmin məhz bu dövrdə yaranmış oldu və bu muddət ərzində «Siyasi Məsləhətləşmələr» haqqında protokol, mədəniyyət, elm, təhsil sahəsində əməkdaşlıq haqqında bəyannamə, elmi axtarışlar, nəqliyyat sayir sahələrə dayir memerandumlar imzalandı (ətraflı bax 5,6).

Birinci mərhələdə İranla Azərbaycan arasında əməkdaşlıq həm də beynəlxalq təşkilatlarla etdirilmişdir. Bu təşkilatlar içəsində İslam Konfransı Təşkilatını, İqtisadi Əməkdaşlıq Təşkilatını. BMT-ni göstərmək olar.

İki ölkə arasında əməkdaşlığın ən mühüm sahələrindən biri də parlamentrlərarası əməkdaşlıqdır. İranla-Azərbaycan arasında mehriban qonşuluq münasibətlərinin inkişafında parlamentlərarası dostluq qrupları səmərəli fəaliyyət göstərir. Çünki, dövlətlərarası münasibətlərdə təzahür edən maniələrin aradan qaldırılması üçün parlament xətti ilə daha effektli təsir göstərilir.

Birinci mərhələdə dövlətlərarası nümayəndə heyətlərinin mübadiləsi iki ölkə arasında əməkdaşlığın möhkəmlənməsinə təsir edən ən mühüm amil hesab olunur. Məhz bu qarşılıqlı rəsmi səfərlərin keçirilməsi nəticəsində İranla Azərbaycanın münasibətləri-

nin çoxşaxəli inkişafı üçün normativ hüquqi baza yaradılır. Qeyd etmək lazımdır ki, Azərbaycan-İran münasibətləri çox unikal xarakter daşıyır və məhdud diplomatik çərçivəyə sığmır. Milli öndər H.Əliyev demişkən «İran ilə Azərbaycan arasında olan əlaqələrin tarixi böyükdür...Xalqlarımız əsrlər boy yan-yana, bir yerdə yaşamış, bir ölkədən olaraq eyni ənənələrə malik olaraq bir-birinə həmişə dayaq durmuşlar...İran ilə Azərbaycan arasındakı əlaqələr dövlət səviyyəsinə qalxıb və qarşılıqlı surətdə faydalı dövlətlərarası əlaqələrə çevirilib» (7).

Qeyd etmək lazımdır ki, 1993-cü ildə H.Əliyevin yenidən Azərbaycan Respublikasına qayıdışından sonra İranla Azərbaycan arasında olan münasibətlər daha da genişlənməyə və inkişaf etməyə başladı.

İran Azərbaycan Respublikası arasında münasibətlərin inkişafı 1995-ci ildən bu günümüzədək olan dövrü təşkil edir. 1995-ci ildən indiyədək qarşılıqlı şəkildə rəsmi səfərlər daha da davam etdirilmişdir. Bu dövr ərzində dövlətlərarası 78 rəsmi səfərlər təşkil olunmuşdur. Bu səfərlərdən 57-si İran tərəfinin payına, 21 səfər isə Azərbaycanın payına duşür. Bu səfərlərdən 18-i rəsmi və qalanları işgüzar səfərlər olmuşdur. Bu səfərlərin əhəmiyyətini nəzərə olaraq onları aşağıdakı cədvəldə daha əyani şəkildə göstərmək

| İllər | Səfərlərin sayı | | Cəmi | Səfərlərin növü | | Cəmi | Səfərə gedənlərin vəzifəsi | | | | Cəmi |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | İrana | Azərbaycan | | Rəsmi | Qeyri rəsmi | | Prezidentlər | Başqa Güc st-1 | Nazirlər | Başqa Vəzifəli şəxslər | |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 |
| 1995 | - | 2 | 2 | 2 | - | 2 | - | - | 1 | 1 | 2 |
| 1996 | 4 | 7 | 11 | 7 | 4 | 11 | 1 | - | 5 | 5 | 11 |
| 1997 | 3 | 2 | 5 | - | 5 | 5 | 1 | - | 3 | 1 | 5 |
| 1998 | 1 | 5 | 6 | - | 6 | 6 | - | 1 | 2 | 3 | 6 |
| 1999 | 7 | 7 | 14 | 3 | 11 | 14 | - | 1 | 6 | 7 | 14 |
| 2000 | 3 | 5 | 8 | 1 | 7 | 8 | 1 | - | 3 | 4 | 8 |
| 2001 | 3 | 5 | 8 | 2 | 6 | 8 | - | - | 1 | 7 | 8 |
| 2002 | 2 | 8 | 10 | 1 | 9 | 10 | 1 | - | 6 | 3 | 10 |
| 2003 | 4 | 6 | 10 | 1 | 9 | 10 | - | - | 4 | 6 | 10 |
| 2004 | - | 4 | 4 | 1 | 3 | 4 | 1 | - | - | 3 | 4 |
| Cəmi | 27 | 51 | 78 | 18 | 60 | 78 | 5 | 2 | 31 | 40 | 78 |

Rəsmi səfərlərdən ən yadda qalanı və iki ölkə münasibətləri tarixində dərin iz qoyan dövlət başçılarının qarşılıqlı səfərləridir.

2002-ci ilin mayın 18-də sabiq Prezident, mərhum Heydər Əliyevin İrana rəsmi səfəri başlandı. Bu səfər ərəfəsində Heydər Əliyev mətbuat nümayəndələri qarşısında çıxışında dedi: «İki ölkə rəhbərlərinin görüş və müzakirələrinə ehityac həmişə var...». «Biz qonşuyuq və keçmişdə çox yaxşı əlaqələrimiz olub və indii də bu əlaqələr mövcuddur...Azərbaycanla İran arasında əlaqələrin genişlənməsi, regionda sülhün və sabitliyin bərqərar olmasına müsbət təsir edəcəkdir...».

Xüsusi olaraq qeyd etmək lazımdır ki, AR-nın prezidenti H.Əliyevlə İİR-nın prezidenti S.M.Xatəmi arasında səmimi dostluq münasibəti var idi. S.M.Xatəmi 5 avqust 2004-cü ildə Bakıda rəsmi səfərdə olarkən AR-nın prezidenti İ.Əliyev bir daha təkrar etdi ki, «...biz İranla bağlı Heydər Əliyev siyasətini davam etdirəcəyik». İran prezidenti isə cavabında bildirmişdir. «Mən ümidvaram ki, bu gün burada imzalanan sənədlər ölkələrimiz arasında siyasi, iqtisadi və mədəni münasibətləri daha da genişləndirəcəkdir (8. S.283).

İranla Azərbaycan əlaqələrinin ikinci mərhələsinin ən böyük əhəmiyyəti budur ki, bu mərhələdə İran Azərbaycan münasibətlərinin daha da inkişaf etdirilməsinin hüquqi

bazası yaradılmış oldu və bu hüquqi baza sənədləri aşağıdakı cədvəldə əyni şəkildə göstərilir.

| İllər | Müqavilə | Protokol | Memorandum | Saziş | Bəyannamə | Cəmi |
|---|---|---|---|---|---|---|
| 1995 | - | - | 1 | | | 1 |
| 1996 | 1 | 4 | 2 | 1 | 2 | 10 |
| 1997 | - | - | 5 | 1 | - | 6 |
| 1998 | 3 | 1 | - | 1 | - | 5 |
| 1999 | - | 1 | 1 | 1 | - | 3 |
| 2000 | - | - | 1 | - | - | 1 |
| 2001 | - | - | 2 | - | - | 2 |
| 2002 | 1 | - | 6 | 5 | 1 | 13 |
| 2003 | - | - | 3 | 1 | - | 4 |
| 2004 | 3 | 2 | 7 | 3 | - | 15 |
| Cəmi | 8 | 8 | 28 | 13 | 3 | 60 |

Cədvəldən göründüyü kimi 1995-2004-cü illər ərzində tərəflər arasında 60 snəd imzalanmışdır. Say baxımından ən çox sənəd 2004-cü ildə imzalanaraq müdabilə olunub. Bu sənədlərin əksəriyyəti, irəlidə göstərildiyi kimi İran prezidenti Xatəminin Bakıya rəsmi səfəri əsnasında imzalanarq mübadilə olunmuşdur. Sayca ən az 1995 və 2002-ci illərdə qeydə alınıb. İmzalanmış sənədlərin növə görə birinci yeri Memorandum – 28 sənəd, ən azı isə Birgə Bəyannamə – 3 sənəd mübadilə olunub.

Diqqəti çəkən məqamlardan başlıcası budur ki, tədqiq olunan illərdə iki ölkə arasında əməkdaşlığın növünə görə birinci yerdə iqtisadi-ticarət sahələr olmuşdur. Bu sahələrə dair 25 sənəd imzalanaraq mübadilə olunub. Buradan belə bir nəticə hasil olur ki, iqtisadi maraqlar İranla Azərbaycanın münasibətlərinin əsasını təşkil etmişdir.

İranla Azərbaycan arasında siyasi məsələlər üzrə yaxın və səmərəli əməkdaşlıq mövcuddur. Belə yaxınlıq və əməkdaşlıq regional iəşkilatlarda daha qabarıq şəkildə özünü göstərir. Bu əməkdaşlıq İslam Konfransı Təşkilatı və İqtisadi Əməkdaşlıq (EKO) çərçivəsində daha səmərəli olmuşdur. Bu Təşkilatlarda Azərbaycanın üzv olmasına İran tərəfi daha çox səy göstərmiş sonrakı illərdə, ələlxüsus Heydər Əliyevin dövründə bütün sahələrdə olduğu kimi, regional təşkilatlarda hər iki dövlətin mövqeyi ya üst-üstə düşmüş, ya da çox yaxın olmuşdur. Bu yaxınlıq, məxsusən İslam Konfransı Təşkilatının fəaliyyətində özünü göstərmişdir. Buna misal olaraq qeyd etmək olar ki, bu Təşkilat tərəfindən Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasət aparmasını pisləyən qətnamələrin qəbul olunmasını göstərmək olar. Əlavə edək, Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasət aparılmasını və bu ölkəni təcavüzkar dövlət kimi tanıyan yeganə beynəlxalq təşkilat, məhz İslam Konfransı Təşkilatı olub və bu qətnamələrin qəbul olunmasında İran diplomatiyası yaxından iştirak etmişdir.

Beynəlxalq təşkilatlarda iki dövlətin əməkdaşlığı etibarlı hüququ bazaya söykənir. Belə ki, iki dövlət arasında dostluq və əməkdaşlıq haqqında müqavilətin VII maddəsinə göstərilib: «Tərəflər iki ölkənin beynəlxalq və regional təşkilatlarda əməkdaşlığının səviyyəsindən razı qaldıqlarını izhar etməklə, eyni zamanda bəyan edirlər ki, iki ölkə BMT-də, İslam Konfransı Təşkilatında və İqtisadi Əməkdaşlıq təşkilatında (EKO) əməkdaşlığı gücləndirəcəklər» (9).

İstər İran və istərsə də Azərbaycan öz aralarında əlaqələrin genişləndirilməsində maraqlıdılar. Bu maraq dəfələrlə hər iki ölkənin dövlət başçılarının bəyanatlarında öz ifadəsini tapıb. Bu baxımdan mərhum Heydər Əliyevin fikirləri diqqəti cəlb edir. O deyib: «İranda hamı bilsin ki, Azərbaycan həmişə İranın dostu olub, gələcəkdə də olacaqdır. Bəzi qüvvələr çalışırlar ki, İranla Azərbaycan arasında gərgənlik yaratsınlar, onu ləkələndirsinlər və ya bu yolda çətinlik yaratsınlar. Həm iranlılar, həm də biz bu məsələdən agahıq. Lakin mən Rəspublikanın Prezidenti kimi demək istəyirəm ki, heç bir qüvvə iki ölkənin dostluğunu və qardaşlığını qıra bilməz» (10).

İrəlidə qeyd etdiyimiz kimi İran İslam Respublikası 1992-ci ilin martın 12-də Azərbaycanı müstəqil dövlət kimi tanıdı və onunla səfir səiyyəsində diplomatik əlaqələri bərpa etdi. Bu əlaqələr Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra yüksələn xətt boyu inkişaf etdi, genişləndi. Bu əlaqələrin əsasını mehriban qonşuluq, qarşılıqlı etimad və dostluq prinsipləri təşkil edir. Bu prinsiplərin bünövrəsi Ümummilli Lider Heydər Əliyev tərəfindən hörüldü və hal-hazırda onun siyasətini uğurla həyata keçirən İlham Əliyev tərəfindən mətinliklə davam etdirilir. İranla Azərbaycan arasında dostluq münasibətləri zamanın sınaqlarından uğurla çıxmış, ən ağır məqamlarda bir-birinə hayan olublar.

Belə ki, erməni təcavüzü nəticəsində Azərbaycanın ərazi bütövlüyü pozuldu, ölkənin iqtisadiyyatına küllü miqdarda ziyan dəydi və təxminən bir milyona yaxın insan doğma yurd-yuvalarından didərgin düşərək qaçqın həyatını yaşamağa məcburdurlar. Bu ağır günlərdə Azərbaycana kömək əli uzadan ilk ölkə İran oldu (11). Dəfələrlə İran rəhbərliyi, o cümlədən Ali Dini rəhbər Ayətulla Seyid Əli Xamineyi (12) və sabiq Prezidentlər (13) öz çıxış və bəyanatlarında Ermənistanın Azərbaycana hərbi təcavüzünü pisləmiş, məhkum etmişlər. Lakin bununla belə İranın Ermənistanla əlaqələrinin inkşafı Azərbaycan rəsmlərini inciklik və gileyinə səbəb olur (13). Ola bilsin bu gileyin və incikliyin əsasını da İranın xarici siyasəti barədə Konstitusiyasının 152-ci maddəsində öz ifadəsini tapmış müddəalardır (14).

1992-1993-cü llərdə ölkələr arasında insanların gediş-gəlişini sadələşdirmək üçün dövlətlərarası iki sənəd imzalandı. Bu sənədlərdə ölkələr arasında viza məsələləri, o cümlədən siyasi və xidməti pasportlar, xarici pasportlara viza verilməsi məsələləri öz əksini tapdı (15).

Azərbaycan Respublikası mustəqillik əldə etdikdən sonra 1995-2004-cü illər ərzində ölkələrarası mədəni əlaqələr haqqında 7 sənəd imzalanmış və ölkələr arasında mədəni əlaqələrin daha da genişləndirilməsi təsbit olunmuşdur. Bu sənədlər aşağıdakılardan ibarətdir:

- Mədəni əlaqələrə dair Memorandum 12.12.1996-cı ildə Bakıda imzalanıb. Pleambur, 16 maddə və bir əlavədən ibarətdir.
- Təhsil, elmi tədqiqat və texnologiya haqqında Memorandum 20.05.2002, Tehran.
- İdman haqqında Saziş, 20 may 2002-ci il, Tehran.
- Mədəni əlaqələr barədə Memorandum, 20 may 2002-ci il, Tehran.
- Mədəni əlaqələr barədə Bəyannamə (2003-cü il üçün), 10 dekabr 2002-ci il, Bakı.
- Radio və Televiziya verilişləri barədə Bəyannamə, 10 yanvar 2003-cü il, Bakı.
- Mədəni əlaqələr barədə İran İslam Respublikası ilə Azərbaycan Respublikası arasında müqavilə, 5 avqust 2004-cü il, Bakı (10;4).

Həmçinin iki ölkə arasında mədəni əlaqələrin genişlənməsində radio-televiziya şirkətləri arasında muqavilələr imzalanmışdır. Azərbaycan müstəqillik əldə etdikdən sonra iki ölkə arasında turizm fəaliyyəti daha da inkişaf etmişdir və turist mübadiləsi hər il yüksələn xətlə inkişaf edir. Məsələn 2001-ci ildə Azərbaycandan İrana 15275 nəfər getmişdirsə 2002-ci ildə bu rəgəm 21041 – nəfər olmuşdur (16).

Xalq diplomatiyasının fəaliyyəti daha uğurlu olmuşdur. Azərbaycan mustəqillik əldə etdiyi ilk illərdən ölkənin sərhədyanı vilayət və rayonlarının əhalisi hər biri ölkənin 60 km.-lik ərazisinə həftədə iki gün vizasız gediş-gəliş etmək və sərhədyanı yarmarkalarda alver etmək hüququ əldə etmişlər.

Göründüyü kimi Azərbaycanla İran arasında iqtisadi və siyasi əlaqələr yüksələn xəttlə inkişaf edir və bu zaman baş verə biləcək neqativ halların aradan qaldırılması üçün lazımi hüquqi və normativ sənədlərin hazırlanması tələb olunurdu. Odur ki, 1995-

2004-cü illər ərzində 10 dövlətlərarası sənəd imzalanmış və mubadilə olunmuşdur. Bu səndlər aşağıdakılardan ibarətdir:

İctimai və hüquqi sahələrin hüquqi bazası. 1995-2004-cü illər ərzində aşağıdakı sahələr üzrə 10 müxtəlif sənədlər imzalanaraq mübadilə olunub:

1.Narkotik maddələrin qaçaqmalçılığına qarşı birgə mübarizə aparmaq üçün Memorandium. 30 iyun 1996-cı ildə Tehranda imzalanıb.

2.Humanitar yardım haqqında Anlaşma notası. 07.oktyabr 1996-cı ildə Tehranda imzalanıb.

3.İki ölkənin parlamentləri arasında əməkdaşlığa dair Anlaşma notası. 28 dekabr 1997-ci il, Tehran.

4.Cinayətkarların ekstradidsiya olunmaları haqqında Müqavilə. 21 fevral 1998-ci il.

5.Cəzalandırmaq üçün cinayət törətmiş şəxslərin ekstradidsiyası haqqında Müqavilə, 21 fevral 1998-ci il.

6.Hüquqi yardım haqqında Müqavilə, 21 fevral 1998-ci il.

7.Qeyri-qanuni yolla əldə edilmiş pulların leqallaşdırılmasına qarşı birgə mübarizə və narkotik maddələr üzərində nəzarət haqqında İran İslam Respublikası, Azərbaycan, Gürcüstan və BMT-nin AİH Təşkilatı arasında imzalanmış Memorandium. 5 may 2000-ci il, vyaea şəhəri.

8.Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi və İran İslam Respublikası Daxili İşlər Nazirliyi arasında sərhəd məsələlərinə dair, narkotik maddələrin qaçaqçılığına və s. qarşı birgə mübarizə aparmaq üçün imzalanmış Memorandium. Bakı, 22 yanvar 2000-ci il.

9.İran İslam Respublikası tərəfindən Azərbaycana 2 milyon dollar məbləğində əvəzsiz kredit vermək haqqında Anlaşma Protokolu.

10.Dərman və təbabət haqqında Niyyət Protokolu. 12 iyun 2003-cü il, Tehran (10).

Eyni zamanda İran və Azərbaycan arasında poçt-rabitə və telekommunikasiya xətlərinin yaradılması, təbabət və dərman istehsalı sahəsində, tələbə mübadiləsi sahəsində xeyli işlər görülmüşdür.

1995-2004-cü illər ərzində iki ölkə arasında humanitar yardım sahəsində də xeyli işlər görülmüşdür. Təbii fəlakətlər zamanı hər iki ölkə bir-birinə qarşılıqlı humanitar yardım göstərirlər. İranın İmam Xomeyni adına İmdad Komitəsi Azərbaycan Respublikasının müstəqilliyinin ilk illərindən etibarən xeyriyyəçilik fəaliyyəti ilə məşğul olur (1993-cü ildən). Artıq İmam Xomeyni adına İmdad Komitəsinin Azərbaycanın 18 rayonunda 389 kəndində fəaliyyət göstərir. 1993-2003-cü illər ərzində qaçqınlara, məcburi koçkünlərə 22 mln. ABŞ dollar məbləğində yardım edilmişdir (8.34,253).

Azərbaycan Respublikası ilə İran arasında 1995-ci ildə Qarşılıqlı Komissiya yaradılmışdır. Bu komissiyanın strukturunda müxtəlif sahələr uzrə 12 komitə yaradılmış və iki ölkə arasında olan mövcud əlaqələri və onun perspektivi, tərəflərin öhdəlik və vəzifələri müəyyən edilir.

Beləliklə, İran İslam Respublikası ilə Azərbaycan Respublikası arasında olan münasibətlər etibarlı – normativ hüquqi bazaya söykənir. Belə bir bazanın yaradılması isə uzunmüddətli yüksələn xətlə inkişaf etməkdə olan mehriban dostluq və qonşuluq əlaqələrinin mötəbər mənbəyini təmin edir.

## *ƏDƏBİYYAT*

1.Azəri Şəhrzai, Rza, Heyət-e fonqəladeye Qəfqaziye, çap-e əvvəl, Tehran, Mərkəz-e çap və enteşarate – Vəzarətə Omure Xarece, s.352.
2.Kəmali H. Estemar-e engilis dər məvareye Qəfqaz (1918-1921-ci illər) çape əvvəl, Tehran Mərkəze çap və enteşarat-e Vəzarəte Omure Xarece, 1376, s.230.
3.Əsədi Kiya, Behnaz. «Comhuriye Azərbaycan» çap-e əvvəl, Tehran, Mərkəzə çap və enteşarate Vəzarəte Omure Xarece, 1374, s.146.
4.Moşfeqifər İbrahim, Təhəvvolate nezamiye Qəfqaz-e Cənubi və nəqşe qodrəthaye məntəqei və fəra məntəqei, Fəslname-ye Mərkəzə Motaleate Asiyaye Mərkəzi və Qəfqaz, Şamarey-e 46, Tabestan, 1383, s.41-55.
5.Bəyat Fərhpd, Didqahhaye Əliyot nesbət Ge Comhuriye Eslamiye İran, çap-e əvvəl, Baku, Enteşarate Çaşi oğlu, 1383, s.173.
6.Allahverdiye Qaliley, Soltanzade Vəhdət, «Heydər Əliyof və Şərq», tərcümeye Abbas Namdar və Etibar Quliyev, çap-e əvvəl, Baku enteşarate Çaşi oğlu, 2003, s.584.
7.Yenə orada.
8.Yenə orada.
9.Mahideye osile monasebate dustane və həmkari beyne Comhuriye Eslamiye İran və Comhuriye Azərbaycan monəqidə şode 20 may sale 2002-e miladi, mosadef ba 30.2.1381 hicriye – şəmsi
10.Soltanova, Ağanişsa, Rəise Comhur be Azərbaycan Xahəd aməd, ruznameye «Yeni Azərbaycan» 23.4.1383, nəql dər Esmaizadə Rəsul, Dəste dusti, s.34.
11.Fəsle cədidi dəre monasebate hosne həmcovari və dusti, Ruznameye «İki sahil», 25.4.1383, nəql dər Esmailzade Rəsul Dəste dusti.
12.Allahverdiyev Qaliley, Soltanzade Vəhdət, Heydər Əlayof və Şərq tərcumeye Abbas Namdar və Etibar Quliyef, çap-e əvvəl Baku, enteşarat-e Çaşi oğlu, 2003, s.584.
13.Bəyat Fərhad. Didqahhaye Heydər Əliyof nesbət be Comhuriye Eslamiye İran, çape əvvəl, Baku, enteşarate Çaşi oğlu, 1383, s. 173.
14.Qanune Əsasiye Comhuriye Eslamiye İran.
15.Əsnade Mərbut be yaddaşt təfahome nəncomin komisiyone moştərək-e həmkariye eqtesadi, fənni, elmi, fərhəngi dər tarixə 9.1.2005, fimabeyne do keşvər.
16.Ali Biğlu Həsən (əl yazması). Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında ticarət-iqtisadi əməkdaşlıq haqqında məlumat.

**ГУСЕЙН ДАБИРИ**
***диссертант Института психологии, социологии и права АНАН***

## ФОРМИРОВАНИЕ ДИПЛОМАТИЧЕСКИХ ОТНОШЕНИЙ МЕЖДУ ИРАНОМ И АЗЕРБАЙДЖАНОМ

В данной статье автор исследует историю формирования дипломатических взаимоотношений и отмечает, что это происходило в 20-х годах XX века после образования Азербайджанской Национальной Республики 28 мая 1918 годы.

Он отмечает, что в период существования Азербайджанской Национальной Республики между Ираном и Азербайджаном было подписано 6 международных договоров.

И так, независимость Азербайджанской Республики де-юре и де-факто было признано Ираном. После этого автор исследует образование дипломатических отношений между Ираном и Азербайджаном после объявления независимости в 1991 года.

Он отмечает, что после объявления независимости Азербайджана Иран был первым государством признавших независимость Азербайджана и исследует период формирования дипломатических отношений между двумя сторонами, которые развивали большими темпами и в короткий период между правительствами были подписаны межгосударственные соглашения.

**HUSEYN DABIRI**
***Post-graduated of Institute of philosophy, Shoologi and low of NAS of Azerbaijan***

## FORMING OF DIPLOMATICALLY RELATION BETWEEN IRAN AND AZERBAIJAN REPUBLIC

In given article the author investigated history of forming diplomatically relation and showed that is was formed in 20 years of XX century after forming Azerbaijan National Republic in 28 may 1918 year.

He notes, that in period existence Azerbaijan National Republic between Iran and Azerbaijan was signed 6 international agreements.

And so the independence of Azerbaijan Republicde yure and de facto was acknowledge by Iran, hereinafter in article the author investigated restorability of diplomatically relation between Iran and Azerbaijan after advertise of independence in 1991 year.

He notes, that after advertise of independence of Azerbaijan, Iran was one of first countries acknowledge independence of Azerbaijan and in inestigating period diplomatically relation between two sides improved large temps and in shortest period between government was signed more go intergovernmental agreements.

***Rəyçilər: h.e.n.R.Qarayev, t.e.d.İ.Məmmədov.***
***AMEA-nın Fəlsəfə, sosiologiya və hüquq İnstitutunun Elmi Şurasının 15 noyabr 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №12).***